# İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ






# AZEXPORT.AZ
MADE IN AZERBAIJAN

## İXRAC İCMALI

2018-ci il / Yanvar №1(10)



www.iqtisadiislahat.org
info@ereforms.org



## “Bizim qeyri-neft ixracımız, o cümlədən ərzaq məhsullarının ixracı sürətlə artır”

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasdakı nitqindən**

*“Bizim ixrac potensialımız artır. 2017-ci ildə ixrac 19 faiz artmışdır, qeyri-neft ixracımız isə 24 faiz artmışdır. Bu, görülən işlərin nəticəsidir. Əhalimiz artır. Hər il əhali ən azı 100 min nəfər artır. İstehlak artır, turistlərin sayı çoxalır. Keçən il 2016-cı ilə nisbətən 500 minə yaxın çox turist gəlmişdir. Bu da təbii ki, istehlakın artmasına gətirib çıxarır. Buna baxmayaraq, bizim qeyri-neft ixracımız, o cümlədən ərzaq məhsullarının ixracı sürətlə artır. İl ərzində qeyri-neft ixracının 24 faiz artması görülən işlərin nəticəsidir.*

*İdxal isə təqribən cəmi 1 faiz artmışdır və bu da təbiidir. Çünki, ilk növbədə, Azərbaycan öz daxili tələbatını daha böyük həcmdə daxili istehsal hesabına təmin edir, digər tərəfdən vətəndaşların alıcılıq qabiliyyəti artır. Beləliklə, idxalın sabit səviyyədə qalması hesab edirəm ki, çox böyük nəticəmizdir. Ticarət balansımızın müsbət saldosu isə 6,2 milyard dollardır. İqtisadiyyatçılar yaxşı bilirlər ki, bu, çox gözəl göstəricidir. Əminəm ki, bu il və bundan sonrakı illərdə bizim saldomuz həmişə müsbət olacaq. Hesab edirəm ki, fərq daha da böyük olacaq və beləliklə, makroiqtisadi vəziyyətimizin yaxşılaşdırılması, manatın məzənnəsinin sabit səviyyədə saxlanması üçün bu, çox mühüm amillərdən biridir”.*

# MÜNDƏRİCAT


SƏHİFƏ 4
**Qeyri-neft sektoru üzrə ixrac**
2017-ci ildə qeyri-neft sektoru üzrə 1 milyard 538 milyon ABŞ dolları dəyərində ixrac olmuşdur

SƏHİFƏ 9
**Reytinq**
Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi

SƏHİFƏ 11
**AZEXPORT.AZ**
"Azexport.az" portalına 2017-ci il ərzində 475 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur

SƏHİFƏ 14
**"Azərkosmos" ASC**
2017-ci ildə "Azərkosmos" ASC 23 milyon ABŞ dolları dəyərində xidmət ixrac etmişdir

SƏHİFƏ 15
**"Bir Pəncərə" İxraca Dəstək Mərkəzi**
"Bir Pəncərə" İxraca Dəstək Mərkəzində gömrük bəyannaməsi də doldurulacaqdır

SƏHİFƏ 16
**İxrac təşviqi**
2017-ci ildə 2.7 milyon manat ixrac təşviqi ödənilmişdir

SƏHİFƏ 17
**Dövlət dəstəyi**
Yerli şirkətlərin ixracla bağlı beynəlxalq sertifikat almasına dəstək veriləcəkdir

SƏHİFƏ 18
**Alıcı missiyaları**
Azərbaycan ərazisinə alıcı missiyaları təşkil olunacaqdır

SƏHİFƏ 19
**Bazar araşdırması**
KTN cins heyvanların ixrac imkanlarını araşdırmışdır

SƏHİFƏ 20
**"Bir Pəncərə" İxraca Dəstək Mərkəzi**
"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə müraciət edən sahibkarların sayı artmışdır

# Qeyri-neft sektoru üzrə ixraca dair məlumat

## 2017-ci ildə qeyri-neft sektoru üzrə 1 milyard 538 milyon ABŞ dolları dəyərində ixrac olmuşdur

## Ötən il qeyri-neft sektoru üzrə ixrac 24 faiz artmışdır 2017-ci ilin dekabr ayında qeyri-neft sektoru üzrə 151.7 milyon ABŞ dolları dəyərində ixrac olmuşdur

2017-ci il ərzində qeyri-neft sektoru üzrə ixrac 1 milyard 538 milyon ABŞ dolları təşkil etmişdir. Nəticədə 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixracın 24 faiz artmışdır. Qeyd edilən müddətdə ixrac əməliyyatlarında 1923 subyekt iştirak etmişdir. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, 2017-ci il ərzində ən çox qeyri-neft məhsulları Rusiya Federasiyasına ixrac edilmişdir. Belə ki, ötən il ərzində Rusiyaya 553 milyon, Türkiyəyə 292 milyon, İsveçrəyə 143 milyon, Gürcüstana 138 milyon və İtaliyaya 56 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

2017-ci il ərzində ixrac olunan qeyri-neft sektoru məhsulları arasında pomidor (tomat) birinci yeri tutmuşdur (151.6 milyon ABŞ dolları). Bu siyahıda ikinci yeri qızıl (125.4 milyon ABŞ dolları), üçüncü yeri isə qabığı təmizlənmiş meşə fındığı (114.5 milyon ABŞ dolları) tutmuşdur.

Ümumiyyətlə, ötən il ərzində meyvə-tərəvəz ixracı 503 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 118 milyon, plastmassa və onlardan hazırlanan məmulatların ixracı 101 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 83 milyon, kimya sənayesi məhsullarının ixracı 80 milyon, pambıq ixracı 52 milyon, elektrik enerjisi ixracı 51 milyon, şəkər ixracı 39 milyon, çay ixracı 10 milyon ABŞ dolları təşkil etmişdir.

Qeyd edək ki, 2016-cı illə müqayisədə 2017-

### 2017-ci il ərzində qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi




**Mənbə:** *Dövlət Gömrük Komitəsi*

ci ildə pambıq ixracı 2.1 dəfə, elektrik enerjisi ixracı 80 faiz, tütün və tütünün sənaye əvəzedicilərinin ixracı 72 faiz, çay ixracı 66 faiz, kimya sənayesi məhsullarının ixracı 42 faiz, meyvə-tərəvəz ixracı 35 faiz, alüminium və ondan hazırlanan məmulatların ixracı 20 faiz, spirtli və spirtsiz içkilərin ixracı 17 faiz, plastmassa və onlardan hazırlanan məmulatların ixracı 2 faiz artmışdır.

Ötən ilin dekabr ayında isə qeyri-neft sektoru üzrə 457 subyekt tərəfindən 151.7 milyon ABŞ dolları dəyərində ixrac əməliyyatları həyata keçirilmişdir.

Dekabr ayı üzrə ixrac olunan əsas mallar xurma, tomat (pomidor), qabığı təmizlənmiş meşə fındığı, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda), alma, metanol (metil spirti), alüminium ərintilərindən qalınlığı 0,2 mm-dən çox olan düzbucaqlı plitələr, vərəqlər, zolaqlar, mis və sink əsaslı ərintilərdən çubuqlar, misdən digər yivli məmulatlar və s. olmuşdur. Dekabr ayında xurma ixracının dəyəri 20.9 milyon ABŞ dolları, pomidor ixracının dəyəri 11.4 milyon ABŞ dolları və qabığı təmizlənmiş meşə fındığı ixracının dəyəri 9.9 milyon ABŞ dolları təşkil etmişdir. Ümumiyyətlə, 2017-ci ildə 2016-cı illə müqayisədə pomidor ixracı 61 faiz, xurma ixracı 32 faiz, fındıq ləpəsi ixracı 9 faiz, alma ixracı 30 faiz artmışdır.

Ötən ilin dekabr ayında qeyri-neft məhsullarının ixrac edildiyi ölkələrin siyahısında ilk beşlikdə Rusiya, Türkiyə, Gürcüstan, İsveçrə və İtaliya təmsil olunmuşdur. Yekunda qeyd edək ki, 2016-cı illə müqayisədə 2017-ci ildə Azərbaycandan ixrac olunun malların çeşidi də 9 faiz çoxalmışdır. İxracın coğrafiyası isə 114 ölkəni əhatə etmişdir.

2017-ci il ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrammalarda verilmişdir.

## 2017-ci ilin dekabr ayında qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi




**Mənbə:** *Dövlət Gömrük Komitəsi*

## 2016-cı ilə nisbətən 2017-ci ildə qeyri-neft sektoruna aid bəzi malların ixracının artımı

2.1 dəfə
Pambıq

80%
Elektrik enerjisi

72%
Tütün və tütünün sənaye əvəzediciləri

66%
Çay

42%
Kimya sənayesi məhsulları

35%
Meyvə-tərəvəz

20%
Alüminium və ondan hazırlanan məmulatlar

17%
Spirtli və spirtsiz içkilər

2%
Plastmassa və onlardan hazırlanan məmulatlar

# 2017-ci il ərzində ixrac olunan əsas qeyri-neft mallarının siyahısı

*(Dəyəri milyon ABŞ dolları ilə)*

- 151.6 Tomat (Pomidor)
- 125.4 Qızıl
- 114.5 Fındıq ləpəsi
- 90.9 Xurma
- 75.4 İlkin formalı polietilen
- 51 Elektrik enerjisi
- 42.9 Alüminium ərintilərindən plitələr
- 42.8 Metanol (metil spirti)
- 39.4 Şəkər
- 34.6 Digər yağlar və yağ məhsulları
- 32.5 Pambıq lifi
- 30.9 Alma
- 28.6 Emal olunmamış alüminium ərintiləri
- 27.4 Nasos-kompressor boruları
- 25.8 Kartof
- 23.2 Albalı və gilas
- 22.7 Polad yarımfabrikatlar
- 22.7 Emal olunmamış aşqarlanmamış alüminium
- 22.6 Aşqarlanmamış alüminiumdan plitələr
- 21.6 Polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr



**Qeyd:** *İnfoqrammada 2017-ci ilin 12 ayı ərzində ixrac edilən 20 əsas məhsulla bağlı məlumat yer almışdır. Lakin həmin dövrdə bu məhsullardan əlavə, qeyri-neft sektoru üzrə yüzlərlə məhsul ixrac olunmuşdur.*

**Mənbə:** *Dövlət Gömrük Komitəsi*

## 2017-ci ilin dekabr ayında ixrac olunan əsas qeyri-neft mallarının siyahısı

*(Dəyəri milyon ABŞ dolları ilə)*

- **20.9** Xurma
- **11.4** Tomat (Pomidor)
- **9.9** Fındıq ləpəsi
- **9.7** Elektrik enerjisi
- **9** Qızıl
- **8.9** İlkin formalı polietilen
- **5.1** Pambıq lifi
- **5** Alma
- **4.9** Emal olunmamış alüminium ərintiləri
- **4.4** Digər yağlar və yağ məhsulları
- **3.7** Polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr
- **3.5** Nasos-kompressor boruları
- **3.4** Metanol (metil spirti)
- **3.3** Alüminium ərintilərindən plitələr
- **1.8** Dəmirdən və ya aşqarlanmamış poladdan çubuqlar
- **1.5** Doymamış propen
- **1.4** Elastik keçid konteynerləri
- **1.3** Mis və sink əsaslı ərintilərdən çubuqla
- **1.2** Misdən digər yivli məmulatlar
- **1.2** Propil spirti



**Qeyd:** *İnfoqrammada 2017-ci ilin dekabr ayında ixrac edilən 20 əsas məhsulla bağlı məlumat yer almışdır. Lakin dekabr ayında bu məhsullardan əlavə, qeyri-neft sektoru üzrə yüzlərlə məhsul ixrac olunmuşdur.*

**Mənbə:** *Dövlət Gömrük Komitəsi*

# Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi

2017-ci ildə qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında 1923 subyekt iştirak etmişdir. Qeyri-neft sektoru üzrə qeyri-dövlət ixracatçı şirkətlərin və fiziki şəxslərin siyahısında ilk onluqda "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Baku Steel Company" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Sun Food" MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Aqrodoctor" MMC, "VN Food Export Import Company" MMC, "Azagroeksport 2017" MMC, "Food Export Şəmkir" MMC və "Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC təmsil olunur.

Qeyd edək ki, noyabr ayı ilə müqayisədə dekabr ayında "Aqrodoctor" MMC və "Food Export Şəmkir" MMC qeyri-dövlət ixracatçı subyeklərinin ilk onluğunda mövqelərini

**Qeyri-neft sektoru üzrə ilk onluqda təmsil olunan qeyri-dövlət ixracatçı subyektlərin reytinqi**



möhkəmləndirmişlər.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısında isə ilk onluqda ARDNŞ-in “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi”, “Det-al Alüminium” MMC, “Azergold” QSC, “Azərenerji” ASC, “SOCAR Methanol” MMC, “Ərzaq Məhsullarının Tədarükü və Təchizatı” ASC, “Geofizika və Geologiya İdarəsi”, “Azərbaycan Hava Yolları” QSC, “Naxçıvan MR Dövlət Energetika Xidməti” və “Suraxanı Maşınqayırma Zavodu Törəmə” ASC təmsil olunurlar.

Qeyd edək ki, noyabr ayı ilə müqayisədə dekabr ayında dövlətə məxsus ixracatçı subyektlərin ilk onluğuna “Azərbaycan Hava Yolları” QSC daxil ola bilmişdir. ARDNŞ-in “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” və “Det-al Alüminium” MMC ilk onluqda mövqeyini möhkəmləndirmişdir.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrammalardan tanış ola bilərsiniz.



# "Azexport.az" portalına 2017-ci ildə 475 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur

## Ötən ilin dekabr ayındakı ixrac sifarişlərinin dəyəri isə 30.4 milyon ABŞ dolları təşkil etmişdir

2017-ci il ərzində "Azexport.az" portalına dünyanın 74 ölkəsindən 475 milyon ABŞ dolları məbləğində ixrac sifarişləri daxil olmuşdur. "Azexport.az" portalına 2017-ci ilin dekabr ayında daxil olan ixrac sifarişlərinin dəyəri isə 30.4 milyon ABŞ dolları təşkil etmişdir.

Portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya (18.6 %) ilə yanaşı, Türkiyənin (7.8%), Ukraynanın (5.9%), Hindistanın (4.5%) və ABŞ-ın (4.2%) adı vardır. Dekabr ayında Çili və Livan kimi yeni ölkələrdən ixrac sifarişi daxil olmuşdur.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə məlum olmuşdur ki, dekabr ayında ən çox ixrac sifarişi şərab, konyak, nar şirəsi, nar konsentratı, nar, meyvə şirəsi, çay, tibbi tənzif, fındıq ləpəsi, toyuq yumurtası, mühərrik yağı, mətbəx mebeli, qənnadı məhsulları, meyvə kompotu, sarımsaq, boya, mineral su, kosmetik vasitələr, biyan kökü, konservləşdirilmiş toyuq əti, bal, göbələk və s. mallar üzrə daxil olmuşdur.

"Azexport.az" portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrammalarda verilmişdir.

## "Azexport.az" portalına 2017-ci ildə daxil olan ixrac sifarişlərinin dəyəri



## 2017-ci ilin dekabr ayında "Azexport.az" portalına ixrac sifarişi daxil olan mallar




**Mənbə:** *Azexport.az*

**Qeyd:** *Dekabr ayında infoqrammada yer alan məhsullardan əlavə qeyri-neft sektorunda istehsal edilən digər məhsullara da "Azexport.az" internet portalı vasitəsilə ixrac sifarişləri daxil olmuşdur.*

# "Azexport.az" portalına 2017-ci ilin 12 ayı ərzində daxil olan ixrac sifarişlərinin ölkələr üzrə bölgüsü (faizlə)

| Rusiya | Türkiyə | Ukrayna | Hindistan | ABŞ |
|---|---|---|---|---|
| 18.6 | 7.8 | 5.9 | 4.5 | 4.2 |




| Qazaxıstan | Səudiyyə Ərəbistanı | İraq | Gürcüstan | Pakistan | Liviya |
|---|---|---|---|---|---|
| 4.0 | 4.0 | 3.3 | 2.6 | 2.1 | 2.1 |
| **İtaliya** | **İran** | **Çin** | **Polşa** | **Nigeriya** | **Almaniya** |
| 1.9 | 1.9 | 1.6 | 1.6 | 1.6 | 1.4 |
| **Qətər** | **Misir** | **Benin** | **İngiltərə** | **Hollandiya** | **Türkmənistan** |
| 1.4 | 1.4 | 1.4 | 1.2 | 1.2 | 0.9 |
| **BƏƏ** | **Kanada** | **Bolqarstan** | **Yaponiya** | **İsveç** | **Toqo** |
| 0.9 | 0.9 | 0.9 | 0.9 | 0.9 | 0.9 |

**Mənbə:** *Azexport.az*

# 2017-ci ildə "Azərkosmos" ASC 23 milyon ABŞ dolları dəyərində xidmət ixrac etmişdir

"Azərkosmos" ASC dünyanın 20-dən çox ölkəsinə peyk xidmətləri ixrac etməkdədir. Belə ki, "Azərkosmos" ASC kommersiya fəaliyyətinə başladığı dövrdən ötən qısa müddət ərzində peyklərin istismarından 90 milyon ABŞ dolları həcmində gəlir əldə etmişdir. 2017-ci ilə olan məlumata görə, peyk telekommunikasiya xidmətlərinin (Azerspace-1) ixracından 14 milyon ABŞ dolları, optik peyk xidmətlərinin (Azersky) ixracından isə 9 milyon ABŞ dolları gəlir əldə edilmişdir. Ümumilikdə "Azərkosmos" ASC tərəfindən 2017-ci ildə 23 milyon ABŞ dolları dəyərində xidmət ixracı həyata keçirilmişdir. "Azərkosmos" ASC-nin xidmət ixracı həyata keçirdiyi əsas ölkələr Fransa, Malayziya, BƏƏ, Almaniya, Çin, Gürcüstan, Rusiya və digərləridir




**Mənbə:** *Azexport.az*

# "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində gömrük bəyannaməsi də doldurulacaqdır

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzində ixracatçı sahibkarlar üçün gömrük bəyannamələrinin doldurulması xidməti göstəriləcəkdir. Bu barədə məlumat verən "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin meneceri Nicat Hacızadə bildirmişdir ki, artıq "Azərterminal-kompleks" Birliyinin əməkdaşı "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində sahibkarlara kömək məqsədilə gömrük bəyannamələrinin doldurulmasına başlamışdır. Faktiki olaraq, gömrük bəyannaməsinin doldurulması üçün həm oflayn, həm də onlayn imkan yaradılmışdır. Hazırda gömrük bəyannaməsini həm "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində, həm də onlayn qaydada Rəqəmsal Ticarət Qovşağı (https://dth.azexport.az/) üzərindən doldurmaq mümkündür. Belə ki, Rəqəmsal Ticarət Qovşağında gömrük bəyannaməsinin doldurulması, vahid ixrac ərizəsinin verilməsi, eləcə də onlayn qaydada mümkündür.

N.Hacızadə bildirmişdir ki, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində 5 dövlət qurumu 7 dövlət xidmətini göstərir: "Hazırda Elektron gömrük bəyannamələrinin doldurulmasının da "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində həyata keçirilməsi sahibkarların işini xeyli asanlaşdırır. Çünki sahibkarlar vahid məkanda ixrac üçün bütün prosedurları ən qısa bir müddətdə və daha az resurs sərf etməklə həyata keçirirlər. Faktiki olaraq, bu islahat tədbiri Dünya Bankının "Doing Business" komandasının diqqətini cəlb etmişdir. Bir sıra beyəlxalq qurumların nümayəndələri "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində məlumat turlarında iştirak edərək fəaliyyətimizi yüksək qiymətləndirmişdirlər. Dünya təcrübəsində bütün ixrac xidmətlərinin bir pəncərədən, həm onlayn, həm də oflayn qaydada göstərilməsi yaxşı nümunə sayılır."

N.Hacızadə ixracatla məşğul olan sahibkarları "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin imkanlarından daha geniş istifadə etməyə çağırmışdır: "İndiki halda gömrük bəyannamələrinin də "Bir Pəncərə" qaydasında doldurulması sahibkarlarımızın işini xeyli yüngülləşdirmişdir. Faktiki olaraq, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi, "Azexport.az" portalı və Rəqəmsal Ticarət Qovşağı birlikdə bir ekosistem yaradaraq ixracatın təşviqinə xidmət edir".



# 2017-ci ildə 2.7 milyon manat ixrac təşviqi ödənilmişdir

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 6 oktyabr tarixli 401 nömrəli qərarına əsasən ixrac təşviqi şamil olunan qeyri-neft məhsullarına 2017-ci il ərzində ixrac təşviqi ödənilmişdir.

Belə ki, 2017-ci il ərzində (19 dekabr 2017-ci il tarixinə kimi) qeyri-neft məhsullarının ixracına görə ixrac təşviqi alınması üçün İqtisadiyyat Nazirliyinə 465 müraciət daxil olmuşdur. Həmin müraciətlərlə bağlı 439 məktub-sərəncam verilmişdir. Ümumilikdə ixrac olunan 27 milyon 755 min ABŞ dolları dəyərindəki mala görə ixracatçılara 2 milyon 683 min manat məbləğində ixrac təşviqi ödənilməsi ilə bağlı qərar qəbul olunmuşdur. Qeyd edək ki, ixrac təşviqinin əsas hissəsi (61.5%) üzüm şərabları və digər spirtli içkilərin ixracına görə ödənilmişdir. Həmçinin konserv məhsulları, şirələr, mürəbbələr, souslar ixracına görə 546.8 min manat (20.4%), pambıq ipliyindən hazırlanan məmulatların ixracına görə 336.7 min manat (12.6%), təzə xurma və təzə nar ixracına görə isə 77.6 min manat (2.9%) ixrac təşviqi ödənilmişdir. İxrac təşviqi alan sahibkarlar Rusiya, ABŞ, Çin, Belarus, Gürcüstan, Ukrayna, Latviya, Almaniya, Türkiyə, Tacikistan, Polşa, İraq, Yunanıstan, Kanada, Cənubi Koreya və digər ölkələrə mal ixrac etmişdirlər.

Məlumat üçün bildirək ki, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 fevral tarixli 1255 nömrəli "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına uyğun olaraq, Azərbaycan Respublikasında qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqinin ödənilməsi üçün onlayn müraciətlər qəbul olunur. İxracatçılar ixrac təşviqini almaq üçün müraciətləri onlayn qaydada "www.dth.azexport.az" internet portalı vasitəsi ilə də edə bilərlər.



# Yerli şirkətlərin ixracla bağlı beynəlxalq sertifikat almasına dəstək veriləcəkdir

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 11 yanvar tarixli "Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli 1063 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Fərmanına əsasən yerli şirkətlərin ixracla bağlı beynəlxalq sertifikat almasına dəstək veriləcəkdir.

Belə ki, beynəlxalq sertifikatın alınmasına dəstək tədbirini müvafiq beynəlxalq sertifikatla əhatə olunan məhsulun (məhsulların) ixracatçılarının sifarişi əsasında və "Dövlət satınalmaları haqqında" qanuna uyğun olaraq İqtisadiyyat Nazirliyinin seçdiyi ixtisaslaşmış hüquqi və ya fiziki şəxslər həyata keçirəcəklər. Hər il fevralın 1-dək beynəlxalq sertifikatın alınmasına dəstəklə bağlı ixracatçılardan sifarişlərin qəbuluna dair elan veriləcək və müraciət edilməsi üçün ən azı 60 günlük müddət müəyyən olunacaqdır. Həmin dəstək tədbirindən bir ixracatçı eyni təqvim ili ərzində yalnız bir beynəlxalq sertifikatın alınması üçün faydalana bilər. Dəstək tədbiri çərçivəsində alınmasına dəstək verilən beynəlxalq sertifikatların siyahısını İqtisadiyyat Nazirliyi müəyyən edəcək və özünün rəsmi internet saytında yerləşdirəcək. Hər bir ixracatçı üçün beynəlxalq sertifikatın alınmasına görə ödənilən dəstək məbləği çəkilən xərclərin 50 faizini (60 min manatdan artıq olmamaqla) təşkil edəcəkdir. Dəstək tədbiri çərçivəsində beynəlxalq sertifikat əldə etmiş ixracatçı sertifikatla əhatə olunan məhsulu (məhsulları) sertifikatı əldə etdiyi tarixdən etibarən ixrac etməli və bu barədə məlumatları və sənədləri (Azərbaycan Respublikasından ixrac və digər dövlətə idxal gömrük bəyannamələrinin surətlərini) müvafiq ixrac əməliyyatlarının aparıldığı tarixdən etibarən 30 (otuz) gündən gec olmayaraq nazirliyə təqdim etməlidir.

İxracatçı beynəlxalq sertifikatla əhatə olunan məhsulun (məhsulların) ixracına dair məlumatları və sənədləri nazirliyə təqdim etmədikdə və ya sertifikatın əldə olunduğu tarixdən 1 il ərzində sertifikatla əhatə olunan məhsulun (məhsulların) ixracını həyata keçirmədikdə, həmin sertifikatın əldə edilməsinə görə ödənilmiş dəstək məbləğini geri qaytarmalıdır.



# Azərbaycan ərazisinə alıcı missiyaları təşkil olunacaqdır

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 11 yanvar tarixli "Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli 1063 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Fərmanına əsasən, Azərbaycan ərazisinə alıcı missiyaları təşkil olunacaqdır. Qaydalara əsasən, Azərbaycanın iqtisadi və ticarət əlaqələri, qeyri-neft məhsullarının ixrac potensialı, habelə ixracatçılardan daxil olmuş müraciətlər nəzərə alınmaqla, alıcı missiyalarının tarixini və iştirak edəcək xarici şəxsləri İqtisadiyyat Nazirliyi müəyyən edəcək və bu barədə məlumatı özünün rəsmi internet saytında yerləşdirəcəkdir.

Hər alıcı missiyasının müddəti 6 gündən və hər alıcı missiyasında iştirak edən alıcıların sayı 10 nəfərdən artıq ola bilməz. Hər alıcı missiyasında alıcı yalnız bir nümayəndə ilə təmsil edilə bilər.

Bundan başqa, qaydalara görə, təşkil edilən alıcı missiyalarının sayı təqvim ili ərzində 20-dən çox ola bilməz.

Fərmana görə, alıcı missiyasında iştirak edən xarici şəxslərin Azərbaycana səfəri ilə bağlı təşkilati işləri (mehmanxana, beynəlxalq hava nəqliyyatı və ölkədaxili nəqliyyat (taksi istisna




olmaqla), tərcümə xidmətləri, görüş yerlərinin və avadanlığın icarəsi) və onlarla bağlı xərcləri İqtisadiyyat Nazirliyi təmin etməlidir.

İqtisadiyyat Nazirliyinin dəstəyi ilə xarici ölkələrə ixrac missiyalarının təşkili üçün ayrılması nəzərdə tutulan vəsaitin həcmi artırılmışdır.

Eyni zamanda, yeni dəyişikliyə əsasən ixrac missiyasının müddəti ilə 6 gün, hər ixrac missiyasında iştirak edən ixracatçıların sayı üçün hədd isə 30 nəfərə qaldırılmışdır. İndiyə qədər təşkil edilən ixrac missiyasının sayı təqvim ili ərzində 10-dan çox ola bilməzdi. Dəyişikliyə əsasən bu hədd də 25-ə qaldırılmışdır.

Həmçinin dəyişikliyə əsasən təqvim ili ərzində vahid ölkə stendi ilə iştirak edilən beynəlxalq sərgi və yarmarkaların sayı ilə bağlı hədd artırılaraq 5-dən 10-a çatdırılmışdır. Bununla yanaşı beynəlxalq sərgi və ya yarmarkada fərdi qaydada iştirak edən ixracatçılara ödənilən dəstək məbləği həmin işlərə görə çəkilən xərclərin 50 faizini (10 min manatdan artıq olmamaqla) təşkil edəcəkdir.






# Kənd Təsərrüfatı Nazirliyi cins heyvanların dünya bazarlarına ixracı imkanlarını araşdırmışdır

Kənd Təsərrüfatı Nazirliyinin icmallaşdırma və statistik təhlil şöbəsi tərəfindən Azərbaycandan cins heyvanların ixracı imkanları ilə bağlı araşdırma aparılmışdır. Araşdırmada göstərilir ki, dünyada hər il təqribən 1,1 milyard ABŞ dolları dəyərində cins heyvan ixracı həyata keçirilir. Müxtəlif mənbələrin araşdırması göstərir ki, ixrac olunan cins heyvanların böyük hissəsi «Holştin-Friz» və «Simmental» növləridir. Avropa ölkələri, ABŞ, Avstraliya, Yeni Zellandiya və Uruqvay dünya üzrə cins heyvanlar ixracının 90 faizdən çox hissəsini həyata keçirirlər.

Araşdırmada qeyd edilir ki, inkişaf etməkdə olan ölkələrdə cins heyvanların idxalına yüksək tələbat var. Ən böyük idxalatçılar qismində Çin və Türkiyə çıxış edir. Qlobal bazarda cins heyvanların orta idxal qiyməti bir baş üçün təxminən 1900 ABŞ dollarıdır. Azərbaycan dünyada ən çox cins heyvan idxal edən 15 ölkədən biri olmaqla yanaşı, 2016-cı ildən etibarən ölkəmiz az sayda da olsa cins heyvan ixracına başlamışdır. Yəni Azərbaycanın cins heyvan idxalçısından ixracatçısına çevrilməsi imkanları mövcuddur. Hazırda Azərbaycandan cins heyvanlar Türkmənistana ixrac olunur və bir baş cins heyvanın təqribi ixrac qiyməti 2350 ABŞ dolları təşkil edir.

Araşdırma zamanı aydın olmuşdur ki, qonşu və region ölkələrinə Azərbaycandan ixrac olunan cins heyvanlar üçün potensial bazarlar kimi baxa bilərik. Potensial ixrac bazarı kimi baxılan ölkələrdə orta idxal qiyməti, bir baş üçün 2200 ABŞ dolları təşkil edir.

**Cins heyvan idxal edən ölkələr, natural ifadədə ( baş sayı )**

| İdxalçılar | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| Marakeş | - | - | - | 3844 | 14600 |
| Özbəkistan | 3700 | 7954 | 13274 | 15348 | 10137 |
| Misir | - | - | 2219 | 5025 | 8346 |
| Qazaxıstan | 18155 | 25798 | 19016 | 5112 | 5200 |
| Pakistan | 2419 | 5736 | 1364 | 4149 | 3491 |
| Türkmənistan | - | 104 | 444 | 626 | 1073 |
| İran | 48 | 7 | 120 | 51 | 1039 |
| Küveyt | - | 2709 | 182 | 256 | 853 |
| Gürcüstan | 104 | 327 | 586 | 366 | 732 |
| Tacikistan | - | 156 | 64 | 160 | 426 |
| Qırğızıstan | - | - | - | 86 | - |
| BƏƏ | - | 6580 | 148 | 41 | - |
| Qətər | 846 | 349 | 732 | 3952 | - |

# “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə müraciət edən sahibkarların sayı artmışdır

2018-ci ilin yanvar ayının ilk yarısında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə müraciət edən sahibkarların sayında ciddi artım müşahidə olunmuşdur.

Azərbaycan sahibkarları “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə müraciət etməklə, həm ixrac prosedurları barədə müvafiq məlumat, həm də ixrac üçün ehtiyac olan sertifikat və icazələri almışlar. Məsələn, ötən həftə “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə müraciət edən sahibkarlar gül yağının Avropa İttifaqı ölkələrinə ixracı zamanı tələb olunan sənədlər, ərzaq və digər məhsulların ixracı zamanı tələb edilən mənşə sertifikatının əldə olunması üçün tələb olunan sənədlər, kəpəyin İran İslam Respublikasına ixracı zamanı tələb olunan sənədlər, nar şirəsi və digər məhsulların İtaliyaya ixracı zamanı tələb olunan sənədlər  və s. məsələlər barədə məlumat almışlar. Eyni zamanda ixracatçılar “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsi ilə metal konstruksiyanın Qətərə və Birləşmiş Ərəb Əmirliklərinə ixracı, sementin Gürcüstana ixracı, qiymətli metallardan hazırlanmış külçələrin İsveçrəyə ixracı, dini təyinatlı kitabın sərgi üçün İrana ixracı, atların Qazaxıstana ixracı və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədləri əldə etmişlər. Həmçinin, ixracın həyata keçirilməsi üçün gömrük bəyannamələrinin doldurulması da təmin edilmişdir.



# İXRAC İCMALI



## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

## Bizimlə əlaqə

(+994)12 5213318

info@ereforms.org

Bakı şəhəri, Yasamal rayonu, L.Landau küçəsi, 16

/iqtisadiislahat